Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi**

# Azərbaycanın beynəlxalq imici, gənclərin rolu...

**Müasir qloballaşma dövründə ölkələr arasındakı sərhədlər nisbi məna kəsb etsə də, milli kimlik və vətənə bağlılıq dəyərləri öz aktuallığını daha da artırıb. Dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlı gənclər həm öz gələcəklərinin formalaşmasında, həm də Azərbaycanın beynəlxalq imicinin gücləndirilməsində mühüm rol oynayırlar. Xüsusilə diaspor gənclərinin vətənpərvərlik fəaliyyəti milli maraqların qorunması, mədəni irsin təbliği və Azərbaycanın dünya ictimaiyyətində layiqli yer tutması baxımından əvəzolunmaz əhəmiyyət daşıyır.**



### Gənclər milli-mədəni kimliyin qorunması istiqamətində genişmiqyaslı işlər görürlər

Diaspor gənclərinin əsas üstünlüklərindən biri onların müxtəlif ölkələrin sosial, mədəni və siyasi mühitinə daha dərindən inteqrasiya olunmalarıdır. Bu inteqrasiya onlara Azərbaycan həqiqətlərini həmin ölkələrin ictimaiyyətinə daha effektli şəkildə çatdırmaq imkanı yaradır. Qeyd edilən fonda Macarıstanın paytaxtı Budapeştdə "Diaspor gəncləri: strateji hədəflərə doğru" mövzusunda Azərbaycan Diaspor Gənclərinin İşçi Qrupunun bu günlərdə baş tutan görüşü mühüm əhəmiyyət kəsb edir. Azərbaycan Evində keçirilən görüşə Diaspor Gənclərinin Yay Düşərgələrində iştirak edən azərbaycanlı gənclər qatılıb.

Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov çıxışında prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan və müasir yanaşmalar əsasında inkişaf edən diaspor siyasətində gənclərin xüsusi yeri barədə danışıb. Bildirib ki, müasir dünyada diaspor, o cümlədən burada yer alan gənclər artıq sadəcə mədəni icma deyil, informasiya müharibəsinin güclü aktorudur. Dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlı gənclərin də bu sahədə uğurları var və onlar ortaq müzakirə platformalarının yaradılması, milli-mədəni kimliyin qorunması istiqamətində faydalı işlər görürlər. Fuad Muradov Diaspor Gənclərinin Yay Düşərgələrinə diqqət çəkib. O, düşərgələrin gənclərdə vətənə bağlılıq hissini inkişaf etdirdiyini söyləyib. Azərbaycanın Macarıstandakı səfiri Tahir Tağızadə diaspor gənclərinin fəaliyyətini və keçirilən tədbiri müsbət qiymətləndirib. Macarıstandakı Azərbaycan Evinin və Azərbaycan Diasporuna Dəstək Fondunun birgə təşkilatçılığı ilə "Diaspor gəncləri: strateji hədəflərə doğru" mövzusunda keçirilən toplantı "Konstitusiya və Suverenlik İli"nə və Qarabağda şanlı Zəfərimizin beşilliyinə həsr olunub. Milli kimliyin qorunması diaspor gənclərinin vətənpərvərlik fəaliyyətinin digər mühüm istiqamətidir. Diaspor mühitində böyüyən gənclər çox vaxt assimilyasiya riski ilə üzləşirlər. Bu baxımdan onların milli dəyərlərə, dilə və tarixə bağlılığının möhkəmləndirilməsi həm fərdi kimlik, həm də milli varlığın davamlılığı üçün vacibdir. Mədəni tədbirlərin təşkili, milli bayramların qeyd olunması, Azərbaycan dilində təhsil və kursların təşkili, folklor və incəsənət nümunələrinin təbliği gənclərin öz köklərinə bağlı qalmalarına xidmət edir. Bu fəaliyyətlər nəticəsində gənclər həm öz milli kimliklərini qoruyur, həm də yaşadıqları cəmiyyətə Azərbaycan mədəniyyətinin zənginliyini nümayiş etdirirlər. Gənclərin, xüsusilə xaricdə təhsil alanların intellektual potensialı da vətənpərvərlik fəaliyyətinin önəmli hissəsidir. Onlar müxtəlif sahələrdə qazandıqları bilik və təcrübəni Azərbaycanla bölüşməklə ölkənin elmi, iqtisadi və texnoloji inkişafına töhfə verə bilərlər. Beynəlxalq layihələrdə iştirak edən gənclər Azərbaycanın innovasiyalar, startap ekosistemi və elm sahəsində əməkdaşlıqlarını genişləndirmək üçün körpü rolunu oynaya bilərlər. Bu baxımdan diaspor gənclərinin intellektual və peşəkar potensialından istifadə edilməsi həm ölkə üçün strateji, həm də gənclərin öz gələcəyi üçün olduqca faydalıdır.

### Azərbaycan gəncinin dünya miqyaslı zəruri missiyası...

Gənclərin ictimai diplomatiyada iştirakı da vətənpərvərlik fəaliyyətinin mühüm istiqamətlərindən biridir. İctimai diplomatiya dövlətlər arasında münasibətlərin yalnız rəsmi səviyyədə deyil, həm də cəmiyyətlərin birbaşa ünsiyyəti ilə inkişaf etdirilməsini nəzərdə tutur. Diaspor gəncləri müxtəlif tələbə təşkilatlarında, beynəlxalq qeyri-hökumət qurumlarında və könüllü layihələrdə aktiv rol almaqla Azərbaycanın maraqlarını müdafiə edə, ölkəmizin müasir və tolerant imicini formalaşdırır. Belə fəaliyyətlər təkcə Azərbaycanı təbliğ etmir, həm də gənclərin liderlik bacarıqlarının inkişafına xidmət edir.

Burada onu da xatırladaq ki, "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2028-ci illər üçün Dövlət Proqramı" çərçivəsində isə hər il 500 nəfərədək Azərbaycan vətəndaşının xaricdə nüfuzlu ali təhsil müəssisələrində bakalavriat və magistratura səviyyələrində təhsil alması nəzərdə tutulub. 2025-2026-cı tədris ili üzrə "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2028-ci illər üçün Dövlət Proqramı" çərçivəsində dünyanın nüfuzlu universitetlərinin bakalavriat, magistratura və doktorantura səviyyələri üzrə maliyyələşdiriləcək təhsil proqramlarının siyahısı müəyyən edilib. Bu il gənclər dünyanın aparıcı reytinq cədvəllərində olan və ötən il əhatə olunmayan 11 ölkənin nüfuzlu ali təhsil müəssisələrində təhsil almaq imkanı əldə ediblər. Bundan başqa, müasir informasiya texnologiyaları diaspor gənclərinə geniş imkanlar açır. Sosial media vasitəsilə aparılan kampaniyalar, video və məqalələrin hazırlanması, beynəlxalq auditoriyaya yönəlik maarifləndirici kontentlərin yaradılması informasiya mübarizəsində mühüm əhəmiyyət kəsb edir. Virtual məkanda gənclərin aktivliyi Azərbaycanın ədalətli mövqeyinin tanıdılmasına, yalan və təhrif olunmuş məlumatların qarşısının alınmasına böyük töhfə verir. Gənclər bu sahədə ən çevik və innovativ qrup olduqları üçün onların fəaliyyətinin təsir gücü çox yüksəkdir. Vətənpərvərlik fəaliyyəti yalnız informasiya, diplomatiya və mədəniyyət sahələri ilə məhdudlaşmır. Diaspor gəncləri həm də sosial həmrəyliyə və humanitar təşəbbüslərə qoşulmaqla milli birliyi gücləndirirlər.

Təbliğat aksiyalarında iştirak, xeyriyyə tədbirlərinin təşkil edilməsi, təbii fəlakət və ya müharibə zamanı Azərbaycan xalqına dəstək göstərilməsi bu həmrəyliyin bariz nümunəsidir. Gənclərin belə təşəbbüslərdə iştirakı həm milli dəyərlərə bağlılıq nümayiş etdirir, həm də onların sosial məsuliyyətini artırır. Beləliklə, gənclərin vətənpərvərlik fəaliyyəti Azərbaycanın beynəlxalq aləmdə tanıdılması, milli kimliyin qorunması, mədəni irsin yaşadılması və dövlət maraqlarının müdafiəsi baxımından böyük strateji əhəmiyyətə malikdir. Onların bilik və bacarıqlarından, enerjisindən və təşəbbüskarlığından düzgün istifadə olunması diaspora siyasətinin daha səmərəli həyata keçirilməsinə şərait yaradır. Hər bir diaspor gənci harada yaşamasından asılı olmayaraq ölkəsinin təəssübünü çəkmək, milli dəyərləri qorumaq və dünyada Azərbaycanı layiqincə təmsil etmək missiyasını daşıyır. Bu missiyanın uğurla yerinə yetirilməsi isə həm milli həmrəyliyin, həm də dövlətçilik ideyasının möhkəmlənməsinə xidmət edir.

***Samirə SƏFƏROVA***

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.***